**“Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları”nın və “POS-terminallar quraşdırılacaq obyektlərin müəyyənləşdirilməsi meyarları”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

“İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2011-ci il 30 sentyabr tarixli 205-IVQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 24 noyabr tarixli 536 nömrəli Fərmanının 1.4-cü bəndinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. “POS-terminallar quraşdırılacaq obyektlərin müəyyənləşdirilməsi meyarları” təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin “POS-terminalların quraşdırılması məqsədəmüvafiq hesab edilən pərakəndə ticarət, iaşə və digər xidmət müəssisələrinin müəyyənləşdirilməsi meyarları”nın və “Ərazilər üzrə POS-terminal aparatlarının mərhələlərlə tətbiq edilməsi cədvəli”nin təsdiq edilməsi barədə” 2006-cı il 3 fevral tarixli 33 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 182) və “Azərbaycan Respublikasının ərazisində POS-terminalların istismar və istifadə edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2006-cı il 18 fevral tarixli 54 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 202) ləğv edilsin.

4. Azərbaycan Respublikasının Vergilər Nazirliyinə tapşırılsın və Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki, bu qərardan irəli gələn məsələlərin həllini təmin etsinlər.

5. Aidiyyəti dövlət orqanlarına tapşırılsın ki, vergilərin və göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının kartlarla ödənilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 4 oktyabr 2012-ci il
№ 219

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2012-ci il 4 oktyabr tarixli
219 nömrəli qərarı ilə
**təsdiq edilmişdir**

# Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Prezidentinin "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2011-ci il 30 sentyabr tarixli 205-IVQD nömrəli Qanununun tətbiqi haqqında" 2011-ci il 24 noyabr tarixli 536 nömrəli Fərmanının 1.4-cü bəndinə əsasən və "Azərbaycan Respublikasında ödəniş sistemlərinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2005-ci il 22 noyabr tarixli 1114 nömrəli Sərəncamının 1.2.1-ci yarımbəndinə uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar ticarət, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı müştərilərlə hesablaşmaların aparılması, habelə vergilərin və dövlət orqanları tərəfindən göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənilməsi üçün təsərrüfat subyektlərində POS-terminalların bu Qaydaların 1 nömrəli əlavəsindəki cədvəl üzrə mərhələlərlə quraşdırılması, qeydiyyatı, istifadəsi, habelə POS-terminalların tətbiqi ilə bağlı digər münasibətləri tənzimləyir.

1.3. Təsərrüfat subyektlərində POS-terminalların mərhələlərlə tətbiqi bu Qaydaların 1 nömrəli əlavəsindəki cədvəl üzrə həyata keçirilir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **ödəniş kartı** (bundan sonra - kart) - nağdsız ödənişlərin aparılması və nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən ödəniş aləti;

2.1.2. **beynəlxalq ödəniş kartı** - beynəlxalq kart təşkilatlarının (Visa, MasterCard və s.) loqotipini daşıyan, ölkə daxilində və ölkədən kənar əməliyyatların aparılması üçün istifadə olunan kart;

2.1.3. **lokal ödəniş kartı** - Azərbaycan Respublikasında fəaliyyət göstərən banklar tərəfindən yalnız ölkə ərazisində istifadə üçün emissiya edilmiş kart;

2.1.4. **xidmət mərkəzi** - qanunvericiliyə uyğun olaraq prosessinq fəaliyyətini həyata keçirmək hüququ olan şəxs;

2.1.5. **əməliyyat** - kartla POS-terminal vasitəsilə ticarət, məişət və digər növ xidmətlərin, habelə vergilərin və dövlət orqanları tərəfindən göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının tam və ya qismən ödənilməsi;

2.1.6. **POS-terminal** - kart vasitəsilə əməliyyatların aparılması, habelə nağd pul vəsaitinin alınması üçün nəzərdə tutulmuş avadanlıq;

2.1.7. **POS-terminal** sifarişçisi (bundan sonra - sifarişçi) - qanunvericiliyə uyğun olaraq POS-terminal quraşdırmalı olan hüquqi və ya fiziki şəxs, habelə dövlət orqanı;

2.1.8. **təsərrüfat subyekti** - sifarişçinin POS-terminal quraşdırdığı obyekt;

2.1.9. **xidmət haqqı** - POS-terminal vasitəsilə aparılmış əməliyyata görə sifarişçi tərəfindən bank ekvayerə ödənilən məbləğ;

2.1.10. **bank ekvayer** - sifarişçi ilə bağlanmış müqavilə əsasında POS-terminalın quraşdırılmasını və POS-terminal vasitəsilə aparılan əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsini təmin edən bank və ya poçt-maliyyə xidmətlərinin həyata keçirilməsi üçün lisenziyaya malik olan hüquqi şəxs;

2.1.11. **əməliyyatçı** - təsərrüfat subyektinin POS-terminaldan istifadə etməyə səlahiyyəti olan əməkdaşı;

2.1.12. **şəxsi tanınma kodu** (bundan sonra - PİN kod) - emitent tərəfindən kart sahibinə və ya onun tərəfindən vəkil edilmiş şəxsə təqdim olunan və əməliyyatın həyata keçirilməsi üçün avtorizasiya zamanı kart sahibinin tanınmasında istifadə olunan gizli şifrə;

2.1.13. **kart istifadəçisi** - kartdan istifadə hüququ olan şəxs;

2.1.14. **avtorizasiya sorğusu** - əməliyyatın həyata keçirilməsi üçün icazənin alınması sorğusu.

### 3. Ümumi tələblər

3.1. Təsərrüfat subyektlərində quraşdırılan və istifadə edilən POS-terminallar aşağıdakı texniki tələblərə cavab verməlidir:

3.1.1. POS-terminal beynəlxalq ödəniş kartlarının qəbulu üçün müvafiq sertifikata malik olmalıdır;

3.1.2. POS-terminal məlumat daşıyıcısı həm maqnit lent, həm də inteqral sxem (mikroprosessor) olan kartlar vasitəsilə əməliyyatların həyata keçirilməsi imkanına malik olmalıdır;

3.1.3. POS-terminalda kartlar vasitəsilə PİN kodun daxil edilməsi tələb olunan əməliyyatların aparılması üçün nəzərdə tutulmuş klaviatura (POS-terminalın inteqrə edilmiş və yaxud POS-terminalla əlaqəsi olan ayrı avadanlıq kimi) olmalıdır;

3.1.4. POS-terminalın texniki parametrləri bank ekvayer və ya xidmət mərkəzi tərəfindən dəstəklənmə imkanlarına malik olmalıdır.

3.2. POS-terminalın quraşdırılması üçün zəruri olan texniki imkanlar (dayanıqlı rabitə kanalı, elektrik cərəyanı mənbəyi və s.) sifarişçi tərəfindən təmin edilir.

3.3. Bank ekvayer POS-terminalın qoşulmasına və xidmət göstərilməsinə dair xidmət mərkəzi ilə müqavilə bağlayır, habelə quraşdırılacaq POS-terminalın istehsalçısı tərəfindən verilmiş və bu Qaydaların 3.1.1-ci yarımbəndində nəzərdə tutulmuş sertifikatın surətini xidmət mərkəzinə təqdim edir.

3.4. POS-terminalın mülkiyyətçisi sifarişçi və ya bank ekvayer ola bilər. Sifarişçiyə məxsus POS-terminal bu Qaydaların 3.1-ci bəndinin tələblərinə cavab verməlidir.

## 4. POS-terminalın quraşdırılması

4.1. Azərbaycan Respublikasının Vergilər Nazirliyi (bundan sonra- Vergilər Nazirliyi) qanunvericiliyə müvafiq olaraq POS-terminalların quraşdırılması tələb olunan sifarişçiyə məxsus bütün təsərrüfat subyektlərində POS-terminalların quraşdırılması üçün bu Qaydaların 2 nömrəli əlavəsinə uyğun bildiriş göndərir.

4.2. Sifarişçi bildirişi aldıqdan sonra 10 (on) iş günü müddətində POS-terminalın quraşdırılması üçün bank ekvayerə müraciət etməlidir.

4.3. Sifarişçi POS-terminalın quraşdırılması üçün ərizə ilə birlikdə aşağıdakı sənədləri bank ekvayerə təqdim etməlidir:

4.3.1. vergi ödəyicisinin və ya dövlət orqanının qanuni təmsilçisinin şəxsiyyətini təsdiq edən sənədin surəti;

4.3.2. sifarişçinin vergi uçotuna alınması haqqında şəhadətnamənin surəti;

4.3.3. təsərrüfat subyektinin vergi uçotunu təsdiq edən sənədin surəti.

4.4. Bank ekvayer sifarişçinin müraciətinə bu Qaydaların 4.3-cü bəndində göstərilmiş sənədlər təqdim edildikdən sonra 3 (üç) iş günü müddətində baxır. Bu müddətdə bank ekvayer POS-terminalın quraşdırılması üçün texniki imkanların yoxlanması məqsədi ilə təsərrüfat subyektinə yerində baxış həyata keçirə bilər.

4.5. Bank ekvayer sifarişçiyə POS-terminalın quraşdırılmasından aşağıdakı hallarda imtina edir:

4.5.1. bu Qaydaların 4.3-cü bəndində nəzərdə tutulmuş sənədlər tam və düzgün təqdim edilmədikdə;

4.5.2. bank ekvayerin təsərrüfat subyektində quraşdırmaq üçün POS-terminalı olmadıqda;

4.5.3. texniki səbəblərdən POS-terminalın quraşdırılması mümkün olmadıqda.

4.6. Bank ekvayer sifarişçiyə POS-terminalın quraşdırılmasından bu Qaydaların 4.5-ci bəndində göstərilmiş hallarda imtina etdikdə, bu Qaydaların 4.4-cü bəndində göstərilmiş müddətdə imtinanın səbəbləri qeyd edilməklə, elektron və ya kağız daşıyıcısında Vergilər Nazirliyinə və sifarişçiyə bu Qaydaların 3 nömrəli əlavəsinə uyğun məlumat göndərir.

4.7. Sifarişçi bank ekvayerdən imtina haqqında məlumat aldıqdan sonra 5 (beş) iş günü müddətində imtinaya səbəb olan uyğunsuzluqları aradan qaldırmaqla, (bu Qaydaların 4.5.3-cü yarımbəndində nəzərdə tutulmuş halda 15 (on beş) gün müddətində) yenidən həmin banka və ya POS-terminalın quraşdırılması üçün digər bank ekvayerə müraciət edir.

4.8. Bank ekvayer tərəfindən sifarişçinin müraciətinə müsbət baxıldıqda və müqavilə şərtləri üzrə razılıq əldə edildikdə, tərəflər arasında müqavilə bağlanılır və 20 (iyirmi) iş günü müddətində sifarişçinin müqavilədə nəzərdə tutulmuş təsərrüfat subyektlərində POS-terminal quraşdırılır. Bank ekvayer POS-terminal quraşdırıldıqdan sonrakı ilk iş günü bu barədə elektron və ya kağız daşıyıcısında POS-terminalın qeydiyyatı üçün Vergilər Nazirliyinə bu Qaydaların 4 nömrəli əlavəsinə uyğun olaraq müraciət göndərir.

4.9. Bank ekvayerlə sifarişçi arasında bağlanmış müqavilədə aşağıdakılar əks olunmalıdır:

4.9.1. tərəflərin kartların qəbulu və xidmət olunması üzrə hüquq və vəzifələri;

4.9.2. bank ekvayerlə sifarişçi arasında hesablaşmaların aparılması qaydası və müddəti;

4.9.3. kart vasitəsilə mal, iş və xidmətlərin dəyərinin ödənilməsi zamanı sifarişçinin əlavə haqq təyin etməmək öhdəliyi;

4.9.4. sifarişçi tərəfindən bank ekvayerə ödəniləcək xidmət haqqı və onun ödənilməsi qaydası;

4.9.5. təsərrüfat subyekti tərəfindən kartların ödənişə qəbulu zamanı zəruri olan təhlükəsizlik tədbirləri;

4.9.6. bu Qaydaların tələblərinə uyğun olaraq, sifarişçi tərəfindən kartların ödənişə qəbul edilməsindən mümkün imtina halları;

4.9.7. nəzərdə tutulmuş təhlükəsizlik tədbirlərinin və digər şərtlərin pozulması halında tərəflərin məsuliyyəti;

4.9.8. kart vasitəsilə aparılmış əməliyyata görə ödənişin geri qaytarılması zamanı müştəri ilə müvafiq hesablaşmanın aparılması qaydası və müddəti;

4.9.9. POS-terminal sıradan çıxdıqda, onun təmiri və ya əvəzedilməsi müddəti, həmçinin nasazlıqların aradan qaldırılması üzrə tərəflərin öhdəlikləri;

4.9.10. müqavilənin dəyişdirilməsi və ləğv edilməsi qaydası;

4.9.11. mübahisələrin həlli qaydası.

4.10. Bu Qaydaların 4.9-cu bəndində göstərilən tələblər nəzərə alınmaqla bank ekvayer, sifarişçi və xidmət mərkəzi arasında üçtərəfli müqavilə bağlanıla bilər.

4.11. Vergilər Nazirliyi 2 (iki) iş günü müddətində bank ekvayerin təqdim etdiyi məlumatlar əsasında POS-terminala qeydiyyat nömrəsi verir və müvafiq məlumatları bu Qaydaların 5 nömrəli əlavəsinə uyğun olaraq elektron və ya kağız daşıyıcısında bank ekvayerə göndərir.

4.12. Bank ekvayer Vergilər Nazirliyindən aldığı məlumatlar əsasında tərtib etdiyi POS-terminalın qeydiyyat nömrəsi haqqında məlumatı bu Qaydaların 6 nömrəli əlavəsinə uyğun olaraq 2 (iki) iş günü müddətində sifarişçiyə göndərir. Bank ekvayer 2 (iki) iş günü müddətində POS-terminalın qoşulması və xidmət göstərməsi üçün xidmət mərkəzinə müvafiq qaydada sifariş göndərir. Xidmət mərkəzi 2 (iki) iş günü müddətində POS-terminalın qoşulmasını təmin edir.

4.13. POS-terminal xidmət mərkəzinə qoşulduqdan dərhal sonra sifarişçi POS-terminal vasitəsilə ödənişlərin qəbul edilməsini təmin edir.

4.14. POS-terminalla aparılan əməliyyatlar üzrə hesablaşmalar sifarişçinin bank ekvayerdəki hesabı vasitəsilə həyata keçirilir.

## 5. POS-terminaldan istifadə edilməsi

5.1. Sifarişçi əməliyyatçının bank ekvayerlə bağlanmış müqavilənin şərtlərinə, o cümlədən təhlükəsizlik tədbirlərinə riayət etməsini təmin edir.

5.2. Sifarişçinin POS-terminal quraşdırmış təsərrüfat subyekti ödənişə qəbul edilən kart təşkilatının müvafiq loqotipini kart sahibinin rahat görə biləcəyi yerdə yerləşdirir.

5.3. Əməliyyatçı kartlar vasitəsilə ödənişin qəbul edilməsi zamanı kart istifadəçisinə özündə aşağıdakı məcburi rekvizitləri əks etdirən qəbzin verilməsini təmin edir:

5.3.1. bank ekvayerin adı;

5.3.2. sifarişçinin adı və VÖEN-i;

5.3.3. qəbzin nömrəsi;

5.3.4. əməliyyatın tarixi (gün, ay, il) və vaxtı (saat, dəqiqə);

5.3.5. xidmət mərkəzinin adı;

5.3.6. POS-terminalın kodu;

5.3.7. ödənişin məbləği;

5.3.8. kartın təhlükəsizlik tələbləri çərçivəsində icazə verilən rekvizitləri;

5.3.9. avtorizasiya kodu.

5.4. POS-terminal vasitəsilə dövlət büdcəsi və büdcədənkənar vəsaitlər üzrə mərkəzləşdirilmiş (vahid) xəzinə hesabına ödənişlərin aparılması zamanı qəbzdə büdcə təşkilatı və ya büdcədənkənar dövlət fondunun rekvizitləri, büdcə gəlirlərinin təsnifatı və büdcə səviyyəsinin kodu qeyd edilir.

5.5. Təhlükəsizlik tələblərinə müvafiq olaraq, əməliyyatçı qəbzin kart istifadəçisi tərəfindən imzalanmasını tələb edə bilər.

5.6. Sifarişçi qanunvericiliklə müəyyən olunmuş hallar istisna olmaqla kart, kart istifadəçisi, habelə aparılmış əməliyyatlar haqqında ona məlum olan məlumatların məxfiliyinin qorunmasını təmin edir.

5.7. İş gününün sonunda əməliyyatçı bank ekvayerlə sifarişçi arasında bağlanmış müqaviləyə uyğun olaraq xidmət mərkəzinə (və ya ekvayer banka) sorğu göndərərək, gün ərzində aparılmış əməliyyatları üzləşdirir. Hər hansı uyğunsuzluq aşkar olunduqda, bu barədə xidmət mərkəzi (və ya ekvayer bankı) məlumatlandırılır və aradan qaldırılması üçün müvafiq tədbirlər görülür.

5.8. Sifarişçi kartlar vasitəsilə ödənişin qəbul edilməsi üçün təsərrüfat subyektlərində POS-terminalların işlək vəziyyətdə olmasını təmin edir və hər hansı nasazlıq baş verdikdə, bu barədə bank ekvayeri (və ya xidmət mərkəzini) dərhal məlumatlandırır.

5.9. POS-terminalda nasazlıq baş verdikdə, bank ekvayer və ya sifarişçi (POS-terminal sifarişçinin mülkiyyətində olduğu halda) 5 (beş) iş günü müddətində POS-terminalın işlək vəziyyətə gətirilməsini təmin edir. POS-terminalın təmiri daha çox müddət tələb etdikdə, bank ekvayer və ya sifarişçi təsərrüfat subyektini yeni POS-terminalla təmin edir. Təmirə ehtiyacı olan POS-terminalın qeydiyyatdan çıxarılması və yeni POS-terminalın qeydiyyata alınması bu Qaydalara uyğun həyata keçirilir.

## 6. POS-terminalın qeydiyyatdan çıxarılması

6.1. Bank ekvayer aşağıdakı hallarda 3 (üç) iş günü müddətində POS-terminala verilmiş qeydiyyat nömrəsinin (nömrələrinin) ləğv edilməsi üçün bu Qaydaların 7 nömrəli əlavəsinə uyğun olaraq elektron və ya kağız daşıyıcısında Vergilər Nazirliyinə müraciət edir:

6.1.1. sifarişçi ilə bank ekvayer arasında bağlanmış müqaviləyə xitam verildikdə;

6.1.2. POS-terminal yenisi ilə əvəz edildikdə (bu zaman yeni terminalın qeydiyyat məlumatları bu Qaydalara uyğun təqdim edilir);

6.1.3. sifarişçinin POS-terminal quraşdırılmış təsərrüfat subyekti ləğv edildikdə.

6.2. Vergilər Nazirliyi POS-terminala verilmiş qeydiyyat nömrəsinin ləğv edilməsi üçün bank ekvayerdən müraciət daxil olduqdan sonra 3 (üç) iş günü müddətində qeydiyyat nömrəsini ləğv edir və bu Qaydaların 8 nömrəli əlavəsinə uyğun olaraq banka məlumat verir.

6.3. Bu Qaydaların 6.1.1-ci yarımbəndində nəzərdə tutulmuş hallarda POS-terminal qeydiyyatdan çıxarıldıqdan sonra 3 (üç) iş günü müddətində sifarişçiyə yeni POS-terminalın quraşdırılması üçün bu Qaydaların 9 nömrəli əlavəsinə uyğun olaraq bildiriş göndərilir. Sifarişçi bu Qaydaların 4.2-ci bəndinin tələblərinə uyğun olaraq, yeni POS-terminalın quraşdırılmasını təmin etməlidir.

## 7. Yekun müddəalar

7.1. Sifarişçi, eyni zamanda bir neçə bank ekvayerin xidmətindən istifadə edə bilər. Hər bir POS-terminalın qeydiyyatı bu Qaydalara uyğun həyata keçirilir.

7.2. Dövriyyəsindən və yerləşdiyi ərazidən asılı olmayaraq, fərdi sahibkarlar və hüquqi şəxslər təsərrüfat subyektlərində POS-terminalın quraşdırılması üçün könüllü şəkildə bank ekvayerə müraciət edə bilərlər.

“ Azərbaycan Respublikasının ərazisində
POS-terminalların quraşdırılması, istifadəsi
və tətbiqi Qaydaları”na

**1 nömrəli əlavə**

**Ərazilər üzrə POS-terminalların mərhələlərlə tətbiqi cədvəli**

| Sıra №-si | Ərazinin adı | İcra müddəti |
|---|---|---|
| 1. | Bakı, Gəncə və Sumqayıt şəhərləri | 2012-ci il |
| 2. | Abşeron, Mingəçevir, Şirvan, Şəki, Lənkəran, Yevlax, Bərdə, Naxçıvan, Quba, Xaçmaz, Masallı, Göyçay, Şamaxı, Zaqatala, Şəmkir, Tovuz, Salyan, Sabirabad şəhər və rayonları (kənd və qəsəbələr istisna olmaqla) | 2013-cü il |
| 3. | Digər rayon mərkəzləri (kənd və qəsəbələr istisna olmaqla) | 2014-cü il |
| 4. | Azərbaycan Respublikasının bütün kənd və qəsəbələri | 2015-ci il |
| 5. | Ərazisindən asılı olmayaraq vergilərin və göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənişini qəbul edən dövlət orqanları | 2013-cü il |

“Azərbaycan Respublikasının ərazisində
POS-terminalların quraşdırılması, istifadəsi
və tətbiqi Qaydaları”na

**2 nömrəli əlavə**

**B İ L D İ R İ Ş _______**

Sifarişçinin adı ____________________________________

Sifarişçinin VÖEN-i ____________________________________

Azərbaycan Respublikasının Vergilər Nazirliyi bildirir ki, 20__-c_ ilin ___-c_ rübü üzrə orta aylıq dövriyyəniz ___ manat təşkil etmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin ________ tarixli ___ nömrəli qərarına əsasən tərəfinizdən bildiriş alındıqdan sonra 10 (on) iş günü müddətində _________ kodlu obyekt(lər)də POS-teminal(lar)ın quraşdırılması üçün müvafiq bank ekvayerə müraciət edilməlidir.

POS-terminalın quraşdırılması üçün bank ekvayerə ərizə ilə birlikdə fərdi sahibkarın və ya hüquqi şəxsin qanuni təmsilçisinin şəxsiyyətini təsdiq edən sənədin, sifarişçinin vergi uçotuna alınması haqqında şəhadətnamənin və təsərrüfat subyektinin vergi uçotunu təsdiq edən sənədin surətləri təqdim edilir.

Vergi orqanının səlahiyyətli nümayəndəsi ____________
(imza)

_____________________
(soyadı, adı)

Tarix ___________

M.Y.

“ Azərbaycan Respublikasının ərazisində
POS-terminalların quraşdırılması, istifadəsi
və tətbiqi Qaydaları”na

**3 nömrəli əlavə**

**POS-terminalın quraşdırılmasından imtina barədə məlumat**

Bank ekvayerin adı ________________________________

Sifarişçinin adı ________________________________

Sifarişçinin VÖEN-i ________________________________

Sənədlərin bank ekvayerə təqdim edilmə tarixi ___________________

İmtinanın səbəbi (tam və ətraflı)

________________________________________________________________________

________________________________________________________________________

________________________________________________________________________

________________________________________________________________________

Bank ekvayerin səlahiyyətli nümayəndəsi ____________
(imza)

____________________
(soyadı, adı)

Tarix ______________

M.Y.

"Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları"na

**4 nömrəli əlavə**

**POS-terminalın qeydiyyatı üçün müraciət**

Bank ekvayerin adı ________________________________

Sifarişçinin adı ________________________________

Sifarişçinin VÖEN-i ________________________________

| **Təsərrüfat subyektinin kodu** | **Təsərrüfat subyektinin adı** | **Ünvan** | **POS-terminalın seriya nömrəsi** |
|---|---|---|---|
| | | | |

Bank ekvayerin səlahiyyətli nümayəndəsi ____________
(imza)

____________________
(soyadı, adı)

Tarix ________________

M.Y.

"Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları"na

**5 nömrəli əlavə**

**POS-terminalın qeydiyyatı haqqında məlumat**

Bank ekvayerin adı ______________________________

Sifarişçinin adı ______________________________

Sifarişçinin VÖEN-i ______________________________

| Təsərrüfat subyektinin kodu | Təsərrüfat subyektinin adı | Ünvan | POS-terminalın seriya nömrəsi | POS-terminalın qeydiyyat nömrəsi | POS-terminalın qeydiyyata alınma tarixi |
|---|---|---|---|---|---|
| | | | | | |

Vergi orqanının səlahiyyətli nümayəndəsi ____________

(imza)

____________________

(soyadı, adı)

Tarix ________________

M.Y.

“ Azərbaycan Respublikasının ərazisində
POS-terminalların quraşdırılması, istifadəsi
və tətbiqi Qaydaları”na

**6 nömrəli əlavə**

**POS-terminalın qeydiyyatı haqqında məlumat**

Bank ekvayerin adı ________________________________

Vergi ödəyicisinin adı ________________________________

Vergi ödəyicisinin VÖEN-i ________________________________

| Təsərrüfat subyektinin kodu | Təsərrüfat subyektinin adı | Ünvan | POS-terminalın seriya nömrəsi | POS-terminalın qeydiyyat nömrəsi | POS - terminalın qeydiyyata alınma tarixi |
|---|---|---|---|---|---|
| | | | | | |

Bank ekvayerin səlahiyyətli nümayəndəsi ____________
(imza)

____________________
(soyadı, adı)

Tarix __________________

M.Y.

"Azərbaycan Respublikasının ərazisində
POS-terminalların quraşdırılması, istifadəsi
və tətbiqi Qaydaları"na

**7 nömrəli əlavə**

**POS-terminalın qeydiyyatdan çıxarılması üçün müraciət**

Bank ekvayerin adı ________________________________

Sifarişçinin adı ________________________________

Sifarişçinin VÖEN-i ________________________________

| Təsərrüfat subyektinin kodu | Təsərrüfat subyektinin adı | Ünvan | POS-terminalın seriya nömrəsi | POS-terminalın qeydiyyat nömrəsi | POS - terminalın qeydiyyata alınma tarixi |
|---|---|---|---|---|---|
| | | | | | |

POS-terminalın qeydiyyatının ləğvi səbəbi:

□ Sifarişçi ilə bank ekvayer arasında bağlanmış müqaviləyə xitam verilib.
□ POS-terminal yenisi ilə əvəz edilib.
□ Təsərrüfat subyekti ləğv edilib.

Bank ekvayerin səlahiyyətli nümayəndəsi ____________
(imza)

______________________
(soyadı, adı)

Tarix __________________

M.Y.

“ Azərbaycan Respublikasının ərazisində
POS-terminalların quraşdırılması, istifadəsi
və tətbiqi Qaydaları” na

**8 nömrəli əlavə**

**POS-terminalın qeydiyyatdan çıxarılması haqqında məlumat**

Bank ekvayerin adı ________________________________

Sifarişçinin adı ________________________________

Sifarişçinin VÖEN-i ________________________________

| **Təsərrüfat subyektinin kodu** | **Təsərrüfat subyektinin adı** | **Ünvan** | **POS-terminalın seriya nömrəsi** | **POS-terminalın qeydiyyat nömrəsi** | **POS-terminalın qeydiyyata alınma tarixi** | **POS - terminalın qeydiyyatdan çıxarılma tarixi** |
|---|---|---|---|---|---|---|
| | | | | | | |

Vergi orqanının səlahiyyətli nümayəndəsi ______________

(imza)

______________________

(soyadı, adı)

Tarix ____________________

M.Y.

“Azərbaycan Respublikasının ərazisində
POS-terminalların quraşdırılması, istifadəsi
və tətbiqi Qaydaları”na

**9 nömrəli əlavə**

**B İ L D İ R İ Ş _______**

Sifarişçinin adı ______________________________________________

Sifarişçinin VÖEN-i ______________________________________________

Azərbaycan Respublikasının Vergilər Nazirliyi bildirir ki, 20__ -c_ il ________ tarixində sizə məxsus __________ kodlu təsərrüfat subyektində quraşdırılmış ___________ nömrəli POS-terminal qeydiyyatdan çıxarılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin _____ tarixli _____ nömrəli qərarına əsasən tərəfinizdən bildiriş alındıqdan sonra 10 (on) iş günü müddətində həmin obyektdə POS-terminal(lar)ın quraşdırılması üçün müvafiq bank ekvayerə müraciət edilməlidir.

POS-terminalın quraşdırılması üçün bank idarəsinə ərizə ilə birlikdə fərdi sahibkarın və ya hüquqi şəxsin rəhbərinin və ya qanuni təmsilçisinin şəxsiyyətini təsdiq edən sənədin, sifarişçinin vergi uçotuna alınması haqqında şəhadətnamənin və təsərrüfat subyektinin vergi uçotunu təsdiq edən sənədin surətləri təqdim edilir.

Vergi orqanının səlahiyyətli nümayəndəsi ___________
(imza)

____________________
(soyadı, adı)

Tarix ________________

M.Y.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 4 oktyabr tarixli 219 nömrəli qərarı ilə təsdiq edilmişdir

**POS-terminallar quraşdırılacaq obyektlərin müəyyənləşdirilməsi meyarları**

1. POS-terminallar quraşdırılacaq obyektlər aşağıdakılardır:

1.1. dövriyyəsindən və ərazisindən asılı olmayaraq Əlavə Dəyər Vergisi (ƏDV) ödəyicilərinin bütün təsərrüfat subyektləri (obyektləri) (vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyata alındığı tarixdən);

1.2. dövriyyəsindən və ərazisindən asılı olmayaraq avtomobil və mebel satışı üzrə ixtisaslaşmış müəssisələr, idman və sağlamlıq kompleksləri, səhiyyə obyektləri, istirahət və əyləncə obyektləri, mehmanxanalar, şadlıq evləri, yanacaqdoldurma məntəqələri, hava, su, dəmiryol və avtomobil nəqliyyatı vasitələri ilə sərnişindaşımada biletlərin satışını həyata keçirən satış məntəqələri və turizm şirkətləri (təsərrüfat subyektinin (obyektinin) qeydiyyata alındığı tarixdən);

1.3. rüb üzrə orta aylıq dövriyyəsi 2000 (iki min) manatdan artıq olan vergi ödəyicilərinin bütün təsərrüfat subyektləri (obyektləri) (ərazilər üzrə POS-terminalların mərhələlərlə tətbiq edilməsi cədvəlinə uyğun olaraq);

1.4. hüquqi şəxslərə və fərdi sahibkarlara məxsus minik avtomobili ilə (taksi) sərnişin daşınmasını həyata keçirən nəqliyyat vasitələri (ərazilər üzrə POS-terminalların mərhələlərlə tətbiq edilməsi cədvəlinə uyğun olaraq);

1.5. vergilərin və göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənişini qəbul edən dövlət orqanları (ərazilər üzrə POS-terminalların mərhələlərlə tətbiq edilməsi cədvəlinə uyğun olaraq).